Xalq qəzeti.- 2020.- 10 oktyabr.- S.9.

# Azərbaycanın haqq işi qalib gələcək!

***Bu günlərdə Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə Qarabağın Ermənistan silahlı qüvvələrinin işğalından azad edilməsi uğrunda gedən qalibiyyətli döyüşlər hər bir soydaşımızın qəlbini inam, qürur, sevinc hissi ilə doldurur. Hadisələrin gedişatından riqqətə gələn soydaşlarımıza qoşularaq, mən də bu zəfər yürüşümüzün başında dayanan Prezident İlham Əliyevin yaxın günlərdə xalqımıza Qələbə müjdəsi çatdıracağına, qəhrəman ordumuzun tezliklə düşməni diz çökdürəcəyinə inamımı ifadə edirəm.***



Dünyanı öz təsirində saxlamaq üçün min oyundan çıxan imperialist dövlətlərin işğalçı Ermənistanı 30 ildən artıq bir müddətdə dəstəkləməsi münaqişənin bu qədər uzanmasına gətirib çıxardı. Məlum dövlətlərin özlərinin iştirakları ilə BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 4 dəfə Ermənistanın öz silahlı qüvvələrini işğal etdiyi Azərbaycan torpaqlarından qeyd-şərtsiz, dərhal çıxarılmasına dair qətnamələr qəbul etmişdir. Eyni məzmun və xarakterli qətnamələr həmin dövlətlərin himayədarlığı nəticəsində icrasız qalmış, Ermənistan BMT-yə, dünya ictimaiyyətinə, elə həmin ölkələrin özlərinə də hörmətsizlik, saymamazlıq nümayiş etdirmişdir.

Lakin ermənilər də, onları dəstəkləyənlər də unutdular ki, Azərbaycan xalqı bir gün ayağa qalxıb yurdsevər, müdrik və qətiyyətli Prezidentinin komandanlığı ilə tarixi torpaqlarını murdar düşməndən təmizləyəcək. Artıq Azərbaycan Ordusu bir sıra strateji mövqeləri ələ keçirərək, düşmənə sarsıdıcı zərbələr vurur, işğalçını dayanmadan geri oturdur. 27 il əvvəl Ermənistanın işğal etdiyi torpaqlardan çıxmasına kağız üstündə səs verənlər son günlərdə Qarabağda baş verənlərdən məyus olublar, məğlubiyyətə məhkum olan düşməni hər vasitə ilə xilas etmək istəyirlər.

Belə olan halda haqlı sual yaranır: Bu dövlətlər, beynəlxalq qurumlar Ermənistan Azərbaycanın torpaqlarını vəhşiliklə işğal edəndə, Xocalıda vandalizm, soyqırımı törədəndə niyə işğalçıya “dayan!” demədilər? 1 milyondan çox günahsız insan öz tarixi torpağından qovulanda, qaçqın- köçkünə çevriləndə, Qarabağətrafı dinc sakinlər daim atəşə tutulub qətlə yetiriləndə erməni vəhşilərinə “sülh şəraitində yaşamaq lazımdır” deyən də olmadı. Ona görə də ermənilər insanlıq adına ləkə olan bütün əməllərdən çəkinmədilər. II Dünya müharibəsi zamanı faşistlər də zəbt etdikləri yerlərdə dinc uşaqlara, qoca, ahıl şəxslərə ermənilərin etdikləri vəhşilikləri etməmişdilər.



Bir vacib məsələ odur ki, bu günlərdə biz dostlarımızı və lənətə gəlmiş düşmənlərimizi bir daha tanıdıq və bunu heç vaxt yaddan çıxarmaq olmaz! Bu müharibə bizə həm vətənpərvərlik məktəbi, həm də dostu, düşməni tanımaq baxımından nümunə dərsi oldu. Qarabağda zəfər yürüşümüzün davam etdiyi bir vaxtda cəmiyyətdə olan yüksək döyüş ruhu, vətənpərvərlik hissi, Prerzidentimizə olan inam və sevgi düşmən üzərində qələbənin mötəbər təminatına çevrilib.

Bu günlərdə Azərbaycanın ictimai-siyasi həyatında, mədəniyyət və incəsənətində xüsusi xidmətləri olan şəxslərin iştirakları ilə təbliğat və təşviqat işlərinin daha da genişlənməsi həyati zərurətdir. “Hər şey cəbhə üçün, hər şey Qələbə üçün” şüarı hər yerdə real əməl, işlər və hərəkətlər ilə parlaq surətdə, qürurlandırıcı formada olmalı, həyat tərzimizə çevrilməlidir. İmkanlı şəxslər, sahibkarlar, dövlət məmurları, daha öndə olmalı, nümunə göstərməlidirlər. Əsgər və onların ailələri daim diqqət mərkəzində olmalı, onlara maddi, mənəvi, psixoloji yardımlar edilməlidir.

Sonda üzümü qələbə yürüşümüzün qərargahı başında dayanmış sevimli Prezidentimizə tutub deyirəm: Hörmətli Prezidentimiz! Möhtərəm Ali Baş Komandan! Bu günlərdə qəlbimiz, ruhumuz hər an səngərlərdədir, ordumuzladır, Sizinlədir. Uca Tanrı ordumuza, Ali Baş Komandanımıza kömək və dayaq olsun! Azərbaycanın haqq işi qalib gələcək!

***Məzahir ŞAHMAROV,***
***vəkil***